ədalət.-2019.-14 iyun.-S.4

# "SON ZƏNG"İN SEVİNCİ...

## Bu il ümumtəhsil məktəblərini 80 mindən çox məzun bitirir

**Bu günü, bu anı, bu dəqiqəni onlar düz 11 il gözləyiblər. Bu dəqiqəni, bu anı onların valideynləri və müəllimləri də böyük sevgiylə qarşılayıblar. Çünki 11-cilərin çəkdiyi zəhmət və nəticə elə bu gün öz bəhrsini verir. Əlbəttə, ümumtəhsil məktəbin öz yaddaqalan, maraqlı xatirələri var. Və bu xatirələr hər bir 11-cinin qəlbində, ürəyində özünə məskən salıb. Bu il məktəbi qurtaran 80 mindən çox məzunun yaddan çıxmayan çoxlu sayda xatirələri var.**

"Son zəng"in sevincini Bakıdakı 271 nömrəli tam orta məktəbin məzunları da yaşayırlar. Öncədən deyək ki, bu məktəb şəhərin nümunəvi təhsil ocaqlarından sayılır. Elə bir buraxılış ili yoxdur ki, həmin məktəbin onlarla məzunu yüksək bal toplayaraq müxtəlif ali məktəblərin tələbəsi adını qazanmasın.

Həmin təhsil ocağında 1955 şagird oxuyur. Bu il isə məktəbi 103 nəfər 11-ci bitirir. Eyni zamanda 144 9-cu sinif məzunu da bu il məktəbdə buraxılış imtahanı verib. Bütün bunlar onu göstərir ki, Sabunçu rayonundakı 271 nömrəli tam orta məktəbdə təhsilin tədrisi ən müasir metodlara uyğun təşkil edilir. Təsadüfi deyil ki, bu gün məktəbin 192 əməkdaşı var. Onların 165-i müəllimdir. Yəni başqa sözlə demiş olsaq, şagirdlərin elmi biliyə yiyələnməsi və vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün bu müəllimlər onların yolunda ömürlərini şam kimi əridiblər. Bu il ali məktəbə tələbə qəbulu üzrə keçirilən imtahan zamanı məktəbin iki şagirdi - Pəri Əliyeva 667 bal (IV qrup üzrə), Radil Qurbanov isə 621 bal (I qrup üzrə) toplayaraq yüksək nəticə göstərib. Təbii ki, onlar seçdikləri ixtisasa çox asanlıqla qəbul olacaqlar.



Bununla yanaşı, məktəbin şagirdlərindən 3 nəfərdən ibarət "Gənc Kimyaçılar" komandası Bakı şəhəri məktəbliləri arasında keçirilən müsabiqədə 3-cü yeri tutub. Onlar 11-ci sinif şagirdi Pəri Əliyeva, 10-cu sinif şagirdi İlahə Əhmədova və 9-cu sinif şagirdi Fərid Məmmədzadədir. Eyni zamanda, məktəbin 6A sinif şagirdi Könül İsmayılova Lütfi Zadə adına məktəblərarası III məntiq olimpiyadasında fəal iştirakına və 6C sinif şagirdi Toğrul Nəbizadə isə IV məktəblərarası məntiq olimpiadasında fəal iştirakına görə, sertifikatla təltif olunub.

Bir qayda olaraq məktəbin şagirdləri intellektual yarışlarda və müsabiqələrdə iştirak ediblər. Belə ki, Sabunçu "Gənclər Evi"nin təşkilatçılığı ilə keçirilən ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr olunmuş Sabunçu məktəbləri arasında intellektual çempionatda iştirakına görə, 6 nəfərdən ibarət komanda üzvləri: Nərgiz Məhərrəmli, Məryəm Atakişiyeva, İlahə Əhmədova, Amin Qasımzadə, Fərid Məmmədzadə, Rəşid Əliyev təşəkkürnamə ilə təltif olunublar.

Məktəbin direktoru çox istedadlı, təcrübəli yazıçı-publisist və çoxlu sayda bədii kitabların müəllifi Səməndər Məmmədovdur. Səməndər müəllim o kollektivə rəhbərlik edən gündən məktəb çox böyük uğurlara və yeniliklərə imza atıb. Məktəbin direktor müavinləri Rüxsarə Əlizadə, Ofeliya Arazova, Azər Yusifov, Mətanət İbrahimova bir pedaqoq kimi qarşıya qoyulmuş vəzifəni məsuliyyətlə yerinə yetirirlər. Kütləvi tədbirlərin keçirilməsində və yüksək səviyyədə təşkil edilməsində direktorun təlim-tərbiyə işləri üzrə müavini Rüxsarə Əlizadənin zəhməti çox böyükdür. Bunu həm pedaqoji kollektiv, həm də valideynlər çox yaxşı bilirlər. Məktəbdə sağlam mühitin və atmosferin psixoloji cəhətdən formalaşmasında psixoloq Validə Məmmədovanın adını xüsusilə qeyd etmək istəyirik. Sirr deyil ki, bu gün pedaqoji kollektivlərdə psixoloqların fəaliyyəti şagirdlərin mürəkkəb situasiyalardan çıxmasında önəmli əhəmiyyət kəsb edir. Əsəbi və stress vəziyyətdə olan şagirdlərlə psixoloqun söhbəti çox müsbət təsir göstərir.

Şagirdlərin elmi biliyə yiyələnməsində, cəmiyyət üçün kamil insan kimi yetişməsində pedaqoji kollektivin üzvlərindən Tahirə Səmədovanın, Sənubər Səfərovanın, Nazilə Hüseynovanın, Kəmalə Əzizovanın, Aytən Səfərovanın, Safura Əliyevanın, Təranə Abdinovanın adları iftixar hissiylə çəkilir. Bu müəllimlər sözün həqiqi mənasında dərs dedikləri və tərbiyə verdikləri şagirdlərə öz övladları kimi yanaşırlar. Elə şagirdlər də onları valideynləri kimi sevirlər. "Son zəng"də məktəbin məzunları, müəllimlər, ictimaiyyət nümayəndələri, valideynlər iştirak edirdilər. Məktəbin direktoru Səməndər Məmmədov çıxış edərək məzunları salamladı. Onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı və hər bir məzuna dedi ki, siz 11 il bizim məktəbdə təhsil almısınız və çoxunuz da etimadımızı doğrultmusunuz. Qəbul imtahanının birinci mərhələsində 2 məzunumuz 600-dən yuxarı bal toplayıb. İnanıram ki, ikinci mərhələdə də yüksək bal toplayan məzunlarımız olacaq.

Çünki bizim məktəbimizdə həmişə sağlam, mənəvi, psixoloji mühit olub və şagirdlərimiz də bu mühitdə oxuyub və tərbiyə olunub. Mən ona da inanıram ki, sizin hər biriniz gələcəkdə bu millətə, bu vətənə, bu xalqa namusla xidmət edəcəksiniz. İnsan savadlı və bilikli olanda bütün qapılar onun üzünə açılır və o da öz nurunu, işığını öz xalqına, millətinə pay verir.

**Sonra müəllimlər, valideynlər və məzunlar da öz ürək sözlərini dedilər. Ümumi fikir bu oldu ki, biz bugünkü gənclərə çox böyük ümidlə, inamla baxırıq. Təbii ki, çıxışlarda nikbin notlar səsləndi. Amma "son zəng" çalınanda gözlərdə sevinclə yanaşı bir kədər də hiss olunurdu. Ancaq bu kədər bir azdan gedəcək, onun yerini sevinc və sevgi əvəzləyəcək. Çünki bu gün "son zəng"in sədaları altında həyata qədəm qoyanlar sabah öz sözlərini deməyi bacaracaqlar.**

**Faiq QİSMƏTOĞLU**